2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində
30 dekabr 2019-cu il tarixli 48 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 63 saylı Sabirabad birinci seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzrə qeydə alınmış namizəd Zərbəliyeva Pərvanə Bəybala qızı 30 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək həmin seçki dairəsinin 20 saylı seçki məntəqəsində səsvermə günü qanun pozuntularının araşdırılması barədə dairə seçki komissiyasının qəbul etdiyi 26/72 saylı 28 dekabr 2019-cu il tarixli qərarını mübahisələndirmiş, şikayətə yenidən baxılması və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Namizəd öz müraciətində göstərmişdir ki, səsvermə günü o, yüksək səs topladığı halda ondan az səs toplayan namizədlər bələdiyyəyə üzv seçilmişlər.

Araşdırma prosesində müraciət etmiş qeydə alınmış namizəd P.B.Zərbəliyeva ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək və digər hüquqlarının olması izah edilmiş, ona iclasın vaxtı barədə məlumat verilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

63 saylı Sabirabad birinci seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, 20 saylı seçki məntəqəsində baş verməsi ehtimal olunan qanun pozuntusu ilə bağlı iddia olunanlar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı 20 saylı seçki məntəqəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizəd P.B.Zərbəliyevanın müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 63 saylı Sabirabad birinci seçki dairəsinin 20 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntusu təsdiqini tapmamış, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, səslərin sayılmasında baş verməsi iddia edilən hər hansı bir qanun pozuntusu öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər M.Ə.Həsənov, V.İ.Nağıyev, Ə.H.Ramazanov, S.N.Nazimov, H.M.Məmmədov, İ.M.Mehdiyev, həmçinin bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər V.İ.Məhərrəmov, A.T.Urufova, G.Ə.Abdullayeva, M.Ə.Əliyeva, P.Ə.Abdullayev, İ.İsmiyev, G.Əliyev, E.Kazımov, məntəqə seçki komissiyasının sədri A.A.Qurbanov, komissiyanın katibləri N.F.Məmmədov, H.O.Məhərrəmli, komissiyanın üzvləri V.M.Qasımov, R.M.Novruzov, T.Hüseynovun izahatları ilə təsdiq olunur.

Araşdırma nəticəsində şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır və 63 saylı Sabirabad birinci seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 26/72 saylı qərarı seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edilmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 63 saylı Sabirabad birinci seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzrə qeydə alınmış namizəd Zərbəliyeva Pərvanə Bəybala qızının 30 dekabr 2019-cu il tarixli 48 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 26/72 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |